


# XXXI Rio-de-Janeyro Yay Olimpiya Oyunları

AZERBAIJAN

# Rioda idman bayramı




## XXXI Yay Olimpiya Oyunları start götürür

*Braziliya dünyanın ən böyük idman tədbirini qəbul edir. Rio-de-Janeyro şəhərində sayca XXXI Yay Olimpiadasının başlamasına saatlar qalır. Rio-2016 Cənubi Amerikada keçiriləcək ilk Olimpiya Oyunları kimi tarixə düşəcək. Olimpiadada təxminən 11 min idmançı 28 idman növü üzrə rekord sayda - 306 dəst medal uğrunda mübarizə aparacaq.*

Olimpiya Oyunlarında iştirak edən ölkələrin sayı da (207) rekorddur. İlk dəfə Kosovo və Cənubi Sudan Yay Olimpiadasında təmsil olunur. Üstəlik, Oyunlara qaçqınlardan ibarət yığma komanda qatılacaq. Bu komanda digər komandalarla bərabər hüquqlara malikdir. Qaçqınların komandası Beynəlxalq Olimpiya Komitəsinin (BOK) bayrağı altında çıxış edəcək. Qaçqın olimpiyaçılar qələbə qazanacaqları təqdirdə BOK-nın himni səsləndiriləcək.

2016-cı il Olimpiya Oyunlarının keçirilməsi üçün ərizə qəbulu prosesi 2007-ci il mayın 16-da başlamış və həmin il sentyabrın 13-də başa çatmışdı. Olimpiadanı təşkil etmək iddiası ilə 8 şəhər - Bakı (Azərbaycan), Doha (Qətər), Madrid (İspaniya), Praqa (Çexiya), Rio-de-Janeyro (Braziliya), Tokio (Yaponiya), Çikaqo (ABŞ) və Moskva (Rusiya) çıxış etmişdi. Rusiya 2014-cü il Qış Olimpiya Oyunlarını keçirmək hüququ əldə etdiyinə görə, Moskva ərizəsini geri götürmüşdü. 2008-ci il iyunun 4-də iddiaçı şəhərlər arasından dörd finalçı - Madrid, Rio-de-Janeyro, Tokio və Çikaqo seçilmişdi. BOK-nın 2009-cu il oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagendə keçirilmiş 121-ci sessiyasında Oyunların ev sahibini müəyyənləşdirmək üçün yekun səsvermə keçirilmiş və Rio-de-Janeyro seçilmişdi. Yeri gəlmişkən, Rio 1936-cı il, 1940-cı il, 2004-cü il və 2012-ci il Yay Olimpiya Oyunlarını keçirmək üçün ərizə vermiş, amma bir dəfə də olsun, final səsverməsində iştirak edən şəhərlər arasına düşməmişdi.

Beləliklə, BOK qərarını verdi və Rio Olimpiadasına hazırlıq işləri başladı. Amma hazırlıq prosesi o qədər də rəvan getmədi. Ölkə həm də 2014-cü ildə başqa böyük bir idman tədbirini - futbol üzrə dünya çempionatını keçirməli idi. İş o yerə gəlib çatmışdı ki, 2014-cü ilin əvvəllərində BOK Oyunlar üçün nəzərdə tutulmuş idman obyektlərinin inşasının qrafikdən xeyli geri qalması ilə əlaqədar narahatlığını ifadə etməyə başlamışdı. Hətta Olimpiadanı başqa şəhərə keçirmək məsələsi qaldırılmışdı. Üç variant nəzərdən keçirilirdi: London (Böyük Britaniya), Qlazqo (Şotlandiya) və Moskva (Rusiya). Yekun qərarın həmin il Braziliyada təşkil olunacaq futbol üzrə dünya çempionatından sonra qəbul ediləcəyi gözlənilirdi.



Bununla belə, Oyunların ev sahibi dəyişdirilmədi. BOK Olimpiadaya hazırlığın gedişindən razı qalmasa da, idman tədbirinin baş tutacağına inanırdı. BOK bəyan etdi ki, təşkilatın heç bir B planı yoxdur və istiqamət Rioyadır.

Doğrudan da, Braziliya Yay Olimpiya Oyunlarını təşkil edərkən xeyli çətinliklərlə üzləşdi. Ölkədə iqtisadi vəziyyət ürəkaçan deyil, milli iqtisadiyyatda tənəzzül əlamətləri müşahidə edilir. Bir neçə ildir ölkədə etiraz aksiyaları baş alıb gedir. İctimaiyyət sosial-iqtisadi vəziyyətin gərginləşdiyi bir vaxtda baha başa gələn beynəlxalq idman tədbirlərinə milyardlarla dollar vəsait ayrılmasından narazıdır. Bu ilin mayında ölkə Prezidenti Dilma Rousseff vergi qanunvericiliyini pozmaqda və dövlət vəsaiti ilə maliyyə maxinasiyalarında günahlandırılaraq vəzifəsindən müvəqqəti olaraq kənarlaşdırılmış, ardınca yeni hökumətin üç naziri korrupsiya ittihamı ilə istefaya göndərilmişdir.

**Ardı 4-cü səh.**




# Rioda idman bayramı

## XXXI Yay Olimpiya Oyunları start götürür

*Əvvəli 1-ci səh.*



Olimpiada üçün inşa edilmiş idman obyektlərinin keyfiyyəti narazılıq doğurur. Məsələn, tennisçilər üçün tikilmiş məşq kortlarında tamamlama işləri başa çatmamışdır. Bir neçə gün əvvəl Olimpiya kəndində yanğın baş vermiş, güclü küləkdən sonra yelkənli qayıqsürmə yarışları üçün körpü qismən dağılmışdı. Hər iki hadisə zamanı zərərçəkən olmasa da, Olimpiya Oyunlarının cazibədarlığına xələl gəlir. Olimpiya kəndinin özündə də adi məişət problemləri özünü göstərir. Odur ki, Rioya gəlmiş olimpiyaçıların şikayətlərinin ardı-arası kəsilmir.

Başqa bir ciddi problem ekologiya ilə bağlıdır. Yelkənli qayıqsürmə üzrə yarışların keçiriləcəyi Qvanabara buxtasında suyun keyfiyyəti narahatlıq doğurur. Bir müddət əvvəl suda antibiotiklərə dözümlü olan bakteriyalar aşkarlanmışdır. İdmançılar buxtada suya çıxmaqdan ehtiyat edirlər.

Turist və idmançıları ölkədə yayılmış Zika virusu da narahat edir. Bu səbəbdən dünyanın aparıcı qolfçuları, bəzi tennisçilər, eləcə də bir sıra digər idmançılar Olimpiadaya qatılmaqdan boyun qaçırmışlar. Hərçənd Braziliyada qış fəsli başladığından Zikanın daha təhlükəli olmadığını iddia edənlər də var.



Eyni zamanda, Braziliyada cinayətkarlığın səviyyəsi olimpiyaçıları qayğılandıran problemlərdəndir. Rəsmi məlumata görə, bu ilin yanvarından iyununadək Rio-de-Janeyro ştatında qətl cinayətlərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 17 faiz artmışdır. Cari ilin ilk yarısında ümumilikdə 2470 qətl törədilmişdir. Küçələrdə qarət və soyğunçuluğa gəlincə, belə cinayətlərin sayı ilk yarımildə 34 faiz artmışdır.

Əlbəttə, hökumət olimpiyaçılar üçün normal şərait yaratmaq məqsədilə tədbirlər görmüşdür. İdmançıların təhlükəsizliyini təmin etmək üçün yerli polis hazırlıq vəziyyətinə gətirilmişdir. Terrorizmlə, kimyəvi və bioloji hücumlarla mübarizə üzrə xüsusi təyinatlı dəstələr yaradılmışdır. Oyunlar ərəfəsində, ötən ayın 21-də hüquq-mühafizə orqanları Olimpiada zamanı terror aktı hazırlamaqda şübhəli bilinən 10 nəfərdən ibarət qrupu həbs etmişdir.

Olimpiya Oyunları kimi böyük idman tədbirlərində belə problemlər zaman-zaman ortaya çıxır. Bütün hallarda məsələlər bu və ya digər şəkildə həllini tapır, idman yarışları ön plana çıxır. Bu baxımdan Rio Olimpiadası da istisna deyil. Yəqin ki, məşhur "Marakana" stadionunda Olimpiya məşəli alovlandıqdan sonra sözügedən çətinliklər arxada qalacaq, əsas diqqət idmançıların mübarizəsinə yönələcək.




XXXI Olimpiada başlamazdan xeyli qabaq dünya idman ictimaiyyəti dopinq qalmaqalının şahidi oldu. BOK bir neçə ölkənin Olimpiya Oyunlarına vəsiqə qazanmış idmançılarını, ilk növbədə, Rusiya yığma komandasının çoxsaylı üzvlərini əvvəllər dopinqdən istifadə etdiklərinə görə Rio-2016-ya buraxmadı. Rusiyanın 100-dən çox təmsilçisi Olimpiadadan kənarda qaldı.

Bütün bunlara baxmayaraq, XXXI Yay Olimpiya Oyunları start götürür. Rioda 32 idman obyekti yarışlara hazırdır. Bu obyektlərdən 9-u xüsusi olaraq Olimpiada üçün inşa olunmuşdur. Daha 8 obyekt əsaslı şəkildə yenidən qurulmuşdur. Kişi və qadın futbol komandalarının artıq başlamış turniri ölkənin daha beş şəhərində - Belu-Orizonti, Braziliya, Manaus, Salvador və San-Pauluda keçirilir.

Oyunların favoritlərinə gəlincə, ən çox medalın ABŞ, Çin, Britaniya, Almaniya və Rusiya komandalarına nəsib olacağı gözlənilir. Təbii ki, Azərbaycan idmansevərlərini hər şeydən əvvəl, olimpiyaçılarımızın çıxışları maraqlandırır. Həmişə olduğu kimi, Azərbaycan Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, milli federasiyalar budəfəki Olimpiya Oyunlarına da ciddi hazırlaşmışdır. İdmançıların təlim-məşq toplanışlarını, lisenziya xarakterli beynəlxalq turnirlərdə iştirakını təmin etmək, onlara tibbi-bioloji xidmət göstərmək və digər tədbirləri həyata keçirmək üçün dövlət büdcəsindən 8 milyon manatdan artıq vəsait ayrılmışdı. Bu məbləğ 2012-ci il London Olimpiadasına ayrılmış büdcədən 2 milyon manat çoxdur. Eyni zamanda, Oyunlarda medal qazanacaq idmançıları və onların məşqçilərini böyük məbləğdə pul mükafatları gözləyir.

Yığma komandamız Oyunlara 56 idmançı ilə qatılır. Onlar 16 idman növündə mübarizə aparacaqlar. Azərbaycan ilk dəfə triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində təmsil olunacaq. Yığma komandamızı 34 məşqçi, 6 həkim, fizioterapevtlər, texniki işçilər müşayiət edəcəklər. Həmçinin üç azərbaycanlı hakim Olimpiada çərçivəsində güləş, gimnastika və boks yarışlarını idarə edəcək.

Komandamız təcrübəli idmançılardan təşkil olunmuşdur. Onların 36-sı ilk dəfə Olimpiya Oyunlarına qatılır. Olimpiyaçılarımızın əksəriyyəti beynəlxalq turnirlərdə Rio-2016-ya lisenziya əldə etməklə bərabər, həmin yarışların qalibi kimi dünya və qitə çempionu adı qazanmışdır.

Azərbaycan yığma komandasının Rio Olimpiadasında yüksək nəticə əldə etmək imkanı kifayət qədərdir. İdmançılarımızın təxminən yarısı Olimpiya medallarına iddialıdır. Xüsusilə güləşçilərə, cüdoçulara, boksçulara ümid böyükdür. Eyni zamanda, taekvondo, gimnastika və avarçəkmə növlərində çıxış edən idmançılarımızdan medallar gözləyirik. Uğur olsun!

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***